Azərbaycan.-2025.- 29 iyul (№ 155).- S.2.

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 623 (Cild I); 2024, № 1, maddə 17; 2025, № 2, maddə 101; Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.1.57-1-ci maddə əlavə edilsin:

"1.1.57-1. **sabit tarif** - elektrik enerjisinin istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin tənzimləyici tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması məqsədilə hər bir istehlakçı üzrə tətbiq olunan aylıq tarif elementi;".

2. 9.2.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 9.2.6-cı maddə əlavə edilsin:

"9.2.6. sabit tarif.".

3. 18-ci maddə üzrə:

3.1. 18.5.6-cı maddəyə "dəyəri" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin;

3.2. 18.6.2-ci maddəyə "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri əlavə edilsin.

4. 19.6.4-cü maddəyə "dəyərini" sözündən sonra "və sabit tarifi hər ay" sözləri əlavə edilsin.

5. 29-cu maddə üzrə:

5.1. 29.5.2-ci maddəyə "dəyəri" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin;

5.2. 29.6-cı maddənin ikinci cümləsinə hər iki halda "dəyərini" sözündən sonra "və sabit tarifi" sözləri əlavə edilsin;

5.3. 29.7-ci maddənin dördüncü cümləsində "və həmin qalıq borcun ödənilməli olduğu son tarix" sözləri ", sabit tariflə bağlı qalıq borcu və ödənişin son tarixi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2025-ci il*